**Aygün ŞƏHAVƏTOVA**

*Baki Dövlət Universitetinin "Kitabxana resurslari və informasiya axtariş sistemləri" kafedrasının magistrantı*

# AMEA MƏRKƏZİ ELMİ KİTABXANASINDA SƏNƏD-İNFORMASİYA RESURSLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİNİN YENİ ÜSUL VƏ FORMALARI

***Açar sözlər:*** *Mərkəzi Elmi Kitabxana, kitabxana fondu, sənəd-informasiya resursları, komplektləşdirmə, Azərbaycan Milli Elmlər Akademiyası, kitabxana texnologiyaları, informasiya texnologiyaları.*

***Ключевые слова:*** *Центральная Научная Библиотека, фонд библиотеки, документов-информационные ресурсы, приобретение, Азербайджанская Национальная Академия Наук, библиотечное технологии, информационные технологии.*

***Keywords:*** *Central Scientific Library, fund of library, document-information resource, acquisition, Azerbaijan National Academy of Sciences, library technology, information technology.*

Azərbaycan Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsi Respublikanın kitabxana-informasiya sistemində özünəməxsus yerə və əhəmiyyətə malik olan böyük şəbəkələrdəndir. Azərbaycan elminin və mədəniyyətinin kitabxana-informasiya təminatında çox mühüm xidmətləri olan bu şəbəkə, müstəqillik illərinə keçid dövrünün çətinliklərinə baxmayaraq, öz işini davam etdirə bilmiş, Azərbaycan elminin informasiya təminatında yaxından iştirak etmiş, Akademiya işçilərinin yüksək elmi sorğularını müvəffəqiyyətlə təmin etməyə nail olmuşdur.

Müstəqilliklə bağlı cəmiyyətdə baş verən demokratikləşmə MEK-in ideoloji buxovlardan azad olmasına şərait yaratdı. Yeni şəraitə uyğun olaraq, bütün Respublika kitabxanalarının, o cümlədən MEK-in yeni dünyagörüşünə, milli bəşəri sərvətlərə və dəyərlərə əsaslanan inkişaf konsepsiyasının hazırlanması problemi meydana çıxdı. Bu konsepsiyanın əsas müddəaları ümummilli liderimiz tərəfindən 29 dekabr 1998-ci ildə imzalanmış Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanununda öz əksini tapmışdır.



Müasir dövrümüzdə Azərbaycan elminin dünyaya inteqrasiyasında, mədəni irsimizin təbliğində, elmi mübadilələrin və əlaqələrin genişləndirilməsində, ən qabaqcıl intellektual təcrübələrin öyrənilməsində MEK-in də çox böyük rolu vardır. Bunun əsas səbəblərindən biri də Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Milli Elmlər Akademiyasının nizamnaməsinin 5-ci maddəsinin 54-cü bəndinə əsasən MEK-in elmi status almasıdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 oktyabr 2008-ci ildə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" və 2007-ci ilin 20 aprelində "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncamda AMEA-nın MEK-i üçün dünya standartlarına cavab verən yeni binanın tikilməsi, kitabxananın modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi kimi əhəmiyyətli məsələlər öz əksini tapmışdır. (3, s.25) Bu rəsmi sənədlərə əsasən, MEK-in fondunun zənginləşdirilməsi işində yeni üsul və formaların tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Bu mühüm dövlət sənədlərindən irəli gələn bir çox işləri kitabxananın "Ədəbiyyatın elmi komplektləşdirilməsi" şöbəsi icra etməkdədir. Şöbə kitabxananın fondunun zənginləşməsində xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, komplektləşdirmə termini XX əsrin əvvələrindən kitabxana təcrübəsinə daxil olunub. Komplektləşdirmə –

(latın sözü olub, mənası "dolğun" deməkdir) kitabxana vəzifələrinə və oxucu marağına uyğun gələn sənədlərlə kitabxana fondunun yaradılmasına və müntəzəm yeniləşdirilməsinə deyilir. Kitabxana fondunun formalaşmasının tərkib hissəsi kimi komplektləşdirmənin əhəmiyyəti təkcə formalaşma proseslərini praktiki müəyyənləşdirməklə kifayətlənmir, həmçinin bütün kitabxana fəaliyyətinin əsasını təşkil edir. Komplektləşdirmə prosesində hər şeydən əvvəl iqtisadi, mədəni, habelə oxucu profilinə xidmət edən kartotekalara isnad edilir.

Komplektləşdirmə əlaqələrinin həlli bilavasitə komplektləşdirmənin optimallığı ilə bağlıdır. Məhz buna görə də komplektləşdirmənin optimallığını oxuculara xidmət sahəsindən, təsərrüfat vəzifələrindən, istehsalat prosesindən, profillilik mövqeyindən, müntəzəmlik mahiyyətindən, sənədləri seçmə prinsiplərindən ayrı düşünmək olmaz. Təcrübə göstərir ki, oxucu tərkibinin müxtəlifliyi, mütaliə zənginliyi, dərin məzmunlu sorğular kitabxanaların komplektləşdirmə fərqlərini doğurur. Bunları konkret olaraq ayrı-ayrı kitabxanaların komplektləşdirmə prosesində müşahidə etmək olar. Burada hər şeydən əvvəl kitabxanalar arasında əlaqəli komplektləşdirmə və fondların keyfiyyətini yaxşılaşdırmaq nəzərdə tutulur. (2, s.115)

Komplektləşdirmə prosesində hər bir kitabxana fondunun formalaşma istiqaməti konkret və dəqiq müəyyənləşdirilməlidir. Xüsusən, indiki dövrdə, maliyyə vəsaitlərinin və müasir kitabxana-informasiya texnologiyalarının tətbiq olunduğu bir zamanda kitabxanada komplektləşdirmə işinin əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, kitabxanalar komplektləşdirmə prosesində bir-birini təkrar etməməli, dublet fondlar yaratmamalıdır. Müasir dövrdə MEK-in fondunun birləşməsi də xüsusi əhəmiyyət kəsb edir və bu birləşmə komplektləşdirmənin zənginliyini, fondun idarəetmə potensialını artırır.



Kitabxana fondunun komplektləşdirilməsi, təşkili, bilavasitə onun idarə edilməsi ilə üzvi surətdə bağlıdır. Oxucu tələbatının, sorğusunun artması, peşə ixtisas təhsil dairəsinin genişlənməsi komplektləşdirmə prosesində idarəetmə məsələlərinin yüksəldilməsinə ciddi təsir göstərir. (2, s.48)

AMEA MEK-nin fondunun komplektləşdirilməsi ənənəvi üsulla və internet vasitəsi ilə həyata keçirilir. Ənənəvi üsuldan bəhs edərkən nəşriyyatların işini xüsusi qeyd etmək lazımdır. Müasir dövrdə komplektləşdirmə şöbəsi MEK-in kitab fondunun formalaşmasını aşağıdakı üsullarla təmin edir:

1. Kitab fondunun sistematik yeni ədəbiyyatla operativ təmin olunması;

2. Az nüsxədə olan və ya tələb olunan köhnə ədəbiyyatla zənginləşdirilməsi;

3. Dövri nəşrlərin komplektləşdirilməsi.

6 oktyabr 2008-ci ildə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın yerinə yetirilməsi Azərbaycanda fəaliyyət göstərən kitabxana fondlarının ənənəvi və müasir informasiya daşıyıcıları ilə tam komplektləşdirilmə mexanizminin yaradılmasına və bu işin davamlı şəkildə inkişaf etdirilməsinə imkan verəcək. Bu dövlət proqramına əsasən, AMEA MEK-nin Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsinin üzərinə düşən işlər aşağıdakı bəndləri icra edir:

1. "Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə fondların ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi" 2.1.2. bəndə əsasən;

2. "Kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi, kompüterləşdirilmiş kitabxana infrastrukturunun, elektron informasiya resurslarının və müxtəlif sahələr üzrə elektron kitabxanaların yaradılması" 2.2.3. bəndə əsasən;

3. "Ölkəşünaslığa (Azərbaycanşünaslığa) dair Rusiya Dövlət kitabxanasında, Rusiya Milli kitabxanasında, Kazan, Tbilisi və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın (o cümlədən, dövri mətbuatın) müəyyənləşdirilməsi və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə layihələrin həyata keçirilməsi" 2.1.6. bəndə əsasən. (6, s.41)

Dünyanın bir çox kitabxanaları kimi Mərkəzi Elmi Kitabxana da müasir elmin nailiyyətlərindən bəhrələnməkdə və fandrayzinq, neyrolinqvistik proqramlaşdırma adlı yeni fəaliyyət və elm sahələrini xidmət dairəsinə tətbiq etməkdə olduqca maraqlıdır. Belə ki, müasir cəmiyyət şəraitində cəmiyyət üzvlərini kitabxanalara cəlb etmək, kitabxanaların yeni modelini yaratmaq, keçmiş sovet məkanında formalaşan və qatı ideologiyanın təsiri ilə yalnız məhdud çərçivədə bilik əldə edən oxucunu müasir texniki avadanlıqlarla təchiz olunmuş informasiya mərkəzinə yönəltmək olduqca mürəkkəbləşmişdir. (4, s.295)

AMEA MEK-nin Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsi İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi proqramında CMPL bazasında işləyir. Bu bazada aşağıdakı işləri həyata keçirmək mümkündür:

Komplekləşdirmə modulu

Sifariş

Qəbul

Kitab silinməsi

Abunə (5, s. 40)

Müasir dövrdə şöbə, elektron nəşrlərin meydana gəlməsi, kitab məhsulunun çapı və yayılmasının operativliyini təmin edir və dövri nəşrlər səviyyəsinə qaldırır. Bu baxımdan MEK-in fondunun elektron nəşrlərlə komplektləşdirilməsi müasir informasiya cəmiyyətində kitabxana fondlarının formalaşmasının yeni keyfiyyətlərindədir. 2000-ci illərdən başlayaraq, elektron nəşrləri fondu-



nun formalaşması və inkişafı MEK-in informasiya resurslarının inkişafında yeni mütərəqqi mərhələnin başlanması kimi qiymətləndirilə bilər. Belə ki, Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsi həmin ildən elektron nəşrləri disket, CD-ROM şəklində komplektləşdirməyə başlamış, 2010-cu ildə artıq belə nəşrlərin sayı 4897 nüsxə olmuşdur.

2012-ci ildə cəmi 17159 nüsxə, 2013-cü ildə cəmi 19389 nüsxədən ibarət kitab və dövri mətbuat alınmışdır. Şöbəyə daxil olan jurnallar həm əlifbaya, həm də elmlərə görə kartotekalarda işlənərək, İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi proqramına daxil olunub.

Şöbəyə daxil olan azərbaycan dilində ardı davam edən nəşrlər "ND" ilə işarə olunaraq, İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi proqramında işlənib və elektron variantı kataloqlaşdırma şöbəsinə göndərilmişdir. (1, s. 2-3) Həmçinin şöbə, kitabxananın fondunu beynəlxalq kitab mübadiləsi və hədiyyələr, eləcə də Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanunun 15-ci maddəsinə müvafiq olaraq pulsuz məcburi nüsxələrlə komplektləşdirir.

Müstəqillik illərində AMEA MEK-nin fondunun, onun informasiya resurslarının inkişafı mövcud problemlərə baxmayaraq, mövzu tərkibi baxımından sistemli xarakter daşımış, AMEA-nın tərkibindəki elmi-tədqiqat müəssisələri tərəfindən aparılan tədqiqatların mühüm istiqamətlərinə uyğun olmuşdur. Komplektləşdirmə prosesi bu illərdə özünün mövzu tərkibi ilə yanaşı dil tərkibi baxımından da zəngin hesab olunur. Çünki bu dövrdə MEK-in fonduna daxil olan yeni nəşrlər azərbaycan, rus, türk, fars, ərəb, ingilis, alman və fransız dillərində olmuşdur.

Beləliklə, göstərilən elmi dəlillər və nəzəri ümumiləşdirmələr belə bir qənaətə gəlməyə əsas verir ki, AMEA-nın Mərkəzi Elmi Kitabxanası son illərdə öz maddi-texniki bazasını möhkəmlən-

dirmiş, müasir kitabxana-informasiya texnologiyalarının nailiyyətlərindən ciddi şəkildə bəhrələnmiş, fondunu yeni üsullarla komplektləşdirmiş, kitabxana işinin informasiyalaşdırılması sahəsində əhəmiyyətli uğurlar əldə etmişdir. Müasir informasiya cəmiyyətinin kitabxanalar qarşısında qoyduğu tələb və vəzifələrə uyğun olaraq, Azərbaycan elminin baş qərargahı olan AMEA-nın böyük kollektivini, elmi-tədqiqat işi aparan alim və tədqiqatçılarının kitabxana-informasiya təminatını böyük uğurla yerinə yetirən, kitabxanaşünaslıq, biblioqrafiya və informasiya nəzəriyyəsi sahələrində ciddi elmi araşdırmaları daha da genişləndirən əsas elmi-informasiya mərkəzi kimi daha da qlobal fəaliyyət göstərməyə başlamışdır.

## *ƏDƏBİYYAT SİYAHISI:*


1. AMEA MEK-nin Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsinin hesabatları// 2012-2013-cü illər.
2. Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. – B.: BDU, 2004. – 143s.
3. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. – Bakı, 2009. – 185 səh.
4. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə.– Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2010. – 432 səh.
5. İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti.– Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009. – 312 səh.
6. Rzayeva S. AMEA MEK-in Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsi müstəqillik illərində// AMEA MEK Elmi əsərlər, 2012. – № 12. (s.37-42)




**А.Е.Шахаватова**

## ЦЕНТРАЛЬНАЯ НАУЧНАЯ БИБЛИОТЕКА АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК НОВЫХ МЕТОДОВ И ФОРМ ПОДАЧА РЕСУРСОВ

### РЕЗЮМЕ

НАНА ЦНБ в последние годы укрепила свои материально-технической базы, оснащенный современной библиотеки и информационных технологий, библиотечной работы, значительный прогресс в области информационных технологий, новых способов для финансирования комплектование.

**A.E.Shahavatova**

## CENTRAL SCIENTIFIC LIBRARY OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NEW METHODS AND FORMS OF ACQUISITION OF RESOURCES

### SUMMARY

NASA CSL soup in recent years strengthened its material and technical base, equipped with modern libraries and information technology, library work, significant progress in the field of information technology, new ways to finance acquisited.